# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 36** **Bakı şəhəri, 16 fevral 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1001 11 000 0, 1001 19 000 0, 1001 91 100 0, 1001 91 200 0, 1001 91 900 0 və 1001 99 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "0" rəqəmi "0 (2021-ci il 1 may tarixinədək 1000 kq – 200 ABŞ dolları*)" sözləri ilə əvəz edilsin.

**2.** 1101 00 110 0, 1101 00 150 0 və 1101 00 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (2021-ci il 1 may tarixinədək 1000 kq – 200 ABŞ dolları*)" sözləri ilə əvəz edilsin.

**3.** "QRUP 10"un və "QRUP 11"in cədvəllərindən sonra hər iki halda aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

"Qeyd.

Bu mal qrupuna daxil olan alt yarımmövqelərin 4-cü sütununda qeyd edilmiş ulduz işarəsi ixrac gömrük rüsumlarının dərəcələrini göstərir.".

**4.** Bu Qərar 2021-ci il mayın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***